# Torpaqlarımız işğaldan azad olunduqdan sonra münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçə bilər



***Müsahibimiz Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadədir***

***– Asim müəllim, ilk növbədə, Prezident İlham Əliyevin dünyanın aparıcı telekanallarına verdiyi müsahibələrə münasibətinizi bildirmənizi xahiş edirik.***

– Bir siyasət adamı kimi, mən möhtərəm Prezidentimizin dünyanın tanınmış televiziya kanallarına, o cümlədən KİV-ə verdiyi müsahibələri yüksək dəyərləndirirəm. İndiki məqamda belə müsahibələr böyük əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı Azərbaycan həqiqətlərini, o cümlədən cəbhədə baş verən hadisələr, Ermənistanın işğalçı siyasəti, beynəlxalq hüquq normalarını kobud şəkildə pozması, müharibə qanunlarına zidd olan qadağan olunmuş silahlardan istifadə edərək mülki əhalini qətlə yetirməsi, yaşayış məntəqələrini, həmçinin digər obyektləri yararsız hala salması barədə dünya ictimaiyyətinə ətraflı məlumat verir. Bu, həm də ölkəmizin informasiya cəbhəsində də böyük üstünlüyə malik olmasının göstəricisidir.

***– Dövlətimizin başçısı Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində bildirdi ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçə bilər. Sizin bu məsələyə münasibətiniz necədir?***

– Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında həmişə sülh tərəfdarı olub. Bu, həm də Azərbaycanın mövqeyidir. Problemin beynəlxalq hüquq normaları çərçivəsində, qan tökülmədən həlli istiqamətində bütün vasitələrdən istifadə edir. Dövlətimizin başçısnın bu mövqeyi dünya ictimaiyyəti tərəfindən də dəstəklənir. Ancaq Ermənistan tərəfi təcavüzkar mövqeyindən, işğal etdiyi ərazilərdən əl çəkmək istəmir. Dövlətimizin başçısı Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də bu məqamı diqqətə çatdıraraq dedi ki, Ermənistan tərəfi işğal etdiyi Azərbaycan ərazilərini boşaldacağına dair üzərinə ciddi öhdəlik götürməlidir. Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Əsas prinsiplərdə deyilir ki, işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, qaçqın və məcburi köçkünlərimiz doğma yurd-yuvalarına, o cümlədən Dağlıq Qarabağın, həmçinin qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə dönməlidirlər.

Dövlətimizin başçısı dedi ki, Ermənistan hökuməti bu prinsiplərə sadiq olduğunu, həmin əraziləri boşaldacağını açıq şəkildə bəyan etməlidir və bundan sonra, əlbəttə ki, danışıqlar başlayacaqdır.

Cənab Prezident bildirdi ki, biz indi birinci olaraq ərazilərin boşaldılması və sonra danışıqların başlanılması ilə bağlı ilkin şərti irəli sürmürük. Biz hazırda Ermənistan tərəfindən, bu zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə məsul olan şəxsdən, şəxsən baş nazirdən tələb edirik ki, o, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini boşaldacağını desin. Bundan sonra, əlbəttə ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçəcəkdir.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.-24 oktyabr.- S.8.